# OFTALMOLOQ-ALİMİN XATİRƏSİ ANILIB



**Akademik Zərifə xanım Əliyevanın anım gününə həsr edilmiş geniş tədbir keçirilib. Açılış nitqi ilə çıxış edən Gəncə Şəhər Birləşmiş Xəstəxanası PHŞ-nin direktoru İlkin İsmayılov bildirib ki, Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri olduqca zəngin və çoxcəhətlidir.**

Görkəmli novator alimin keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim, həkim üçün kamillik, müdriklik məktəbidir. Onun zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Oftalmologiya şöbəsinin müdiri Tələt Nəbiyev çıxışında tanınmış həkim, novator alim, eyni zamanda qayğıkeş ana, sədaqətli ömür-gün yoldaşı olan Zərifə Əliyevanın əziz xatirəsinin qəlblərdə yaşadığını qeyd edib.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

Respublika.- 2024.- 16 aprel, № 75.- S.5.